# Bəxtiyar Vahabzadə poeziyasının vəzn və janr müəyyənliyi

*(Əvvəli ötən sayımızda)*

B.Vahabzadə **doqquz hecalıdan** çox az istifadə edib. "Körpülər" şeirindən:

*Həsrətin köksünə dağ basır,*
*Bu eldən o elə körpülər*
*Məhəbbət ölərdi, olmasa*
*Könüldən könülə körpülər.*

B.Vahabzadənin şeirləri içərisində **10 hecalılara** rast gəlmədik.

Şair **on bir hecalı** şeirin saysız-hesabsız nümunələrini yaradıb. Bunlar ənənəvi və qeyri-ənənəvi, bəndli və bütöv mətn (bəndsiz) strukturludur. Şairin on birlikləri, əsasən, 6+5, bəziləri isə 4+4+3 bölgüsündə, ənənəvi olanlar a-a-a-b, a-b-a-b şəklinə əsaslanıb. Şairin carpaz qafiyəli on birlikləri çoxdur. Çarpaz qafiyəli on birliklərə nümunə:

Bitirdim məktəbi bu gün mən demək.

*Sıyrılıb yuxusuz gecələrimdən*
*On il bu taxtada yazıb silərək*
*Nə qədər təbaşir işlətmişəm mən.*

B.Vahabzadənin 14 hecalı şeirləri çoxdur. "Necə gizlənə bildin", "Kəlmələr", "Mənim parta yoldaşım", "Saat", "Rəssam", "Olmaz", "Günəşdən gen düşəndə", "Mirzə Cəlil", "Könül çiçəkləri", "Qələm yoldaşlarıma", "Vaxt" çatışmır", "İyirminci əsr", "Təqvimin varaqları", "Mən sevirəm", "Moabit", "Şeirimin ahəngi", "Ürək yanğısı", "Qara saçlar, ağ saçlar", "Ay işığında", "Səkilər", "Dərdə bax", "Alqış", "Sual varsa, cavab var", "Xəyalla yaşamaq" (1998), "Gecələr - pənah yerim" (1999), "Ucalıqda tənhalıq", "Dağda şəlalə kimi" (1960), "Mənim şeirim" (1964), "Axı dünya fırlanır" (1985), "Sinə daşı", "Hun səsləri" (1992), "Xoşbəxtdir o adam ki" (1958), "Uçuş" (1965), "Yol çəkirik" (1965), "Mənim ad günüm" (1965), "Qanmaq istəməz" (1989), "Köləliyə sədaqət" (1991), "Vaxt aldanmadı", "Maşın silən uşaqlar" (1999), "Cisim deyil, ruham mən" (2000), "Çal, çal ki"(2000), "Dünya qürbət diyarı"(2002), "Əzən səsinə səcdə" (2003), "Ey dünənki körpələr" (2000), "Vaxt aldanmadı" (1997), "Gərəksiz" (2001), "Gecikmə", "Ruhumuzu kol basıb" (2001) və s. A-a-b-b qafiyəli 14-lük:

*Quş tək uçur xəyalım, hardan hara gecələr*
*Mən həsəd aparıram yatanlara gecələr*
*Fikrim dağda, dərədə, yuxu hara, mən hara?*
*Kirpiklərim sancılır ox kimi ulduzlara.*
*("Gecələr")*

Çarpaz qafiyəli 14-lük:

*Kiçik bir hədiyyədi sənə, ey əziz vətən*
*Könül çiçəklərimdən bağladığım bu dəmət.*
*Öz səsimlə səslənən sənətimin əzəldən*
*Gözü qadir əməkdir, bəbəyisə məhəbbət*
*("Könül çiçəkləri")*

Sənətkarın çox 14-lüyü məsnəvi qafiyəlidir.

*Nə qədər istəyirsə, min o qədər fırlan*
*Qarşıma gah şər çıxa, gah xeyir dığırlana,*
*Çərxi-fələk istəyir lap dolana tərsinə,*
*Əqidəmi heç nəyə dəyişmərəm mən yenə.*

Hətta, B.Vahabzadə (7+7)+7 bölgüsündən də istifadə edib.

*Səndə mənim xalqımın /qəhrəmanlıqla dolu*
*Tarixi varaqlanır,*
*Səndə neçə min illik /mənim mədəniyyətim,*
*şan-şöhrətim saxlanır,*
*Mənim adım, sanımsan, /namusum, vicdanımsan.*

B.Vahabzadə **16 hecalı** şeirlərin də nümunələrini yaradıb. "Xatirələr"(1945), "Ağ saçlar" (1948), "Dəmir yolu"(1950), "Anni Dobi" (1951), "Günbatandan gündoğana", "Leyli və Məcnun"(1958), "Azərbaycan" (1991) və s.

"Günbatandan gündoğana" məsnəvisindən:

*Al buludlar xəlbir kimi dəniz üstə nur çiləyir*
*Sarı telli şəfəqlər də elə bil ki nəğmə deyir*

Şairin əksər 16-lıqları məsnəvi qafiyəlidir.



*"Leyli və Məcnun" şeiri müsəddəsdir. 16 hecalı olub, a-a-b-b-c-c qafiyəlidir:*
*"Leyli-Məcnun" - ulu eşqin, məhəbbətin fəlsəfəsi.*
*"Leyli-Məcnun" - ötən dilsiz əsrlərin vicdan səsi.*
*"Leyli-Məcnun" - hər bəmində min ürəyin bir səsi var,*
*Hər zilində qoca Şərqin öz dərdi, öz naləsi var.*
*"Leyli-Məcnun" - Heç solmayan min ətirli bir çiçəkdir,*
*O, xalqının gözlərilə ağlayacaq, güləcəkdir.*

B.Vahabzadə həm heca, həm də əruzda katrenlər yazıb. Bir-iki nümunə:

Hecada:

*Yandım atəşinə hissin, idrakın,*
*Yalnız öz dünyamı anlamaq üçün.*
*Ağıl girməyən yer bəs-bəlli, aydın*
*Ağıl girdiyi yer sirdir büs-bütün.*

Əruzda:

*Yoxluq nə imiş, öz mənini var kimi sanmaq,*
*Varlıqları yoxdan var edən Allahı danmaq.*
*Varlıq nə imiş? Mütləqə qəlbinlə vurulmaq,*
*Eşqində var olmaq üçün Allahda yox olmaq.*

B.Vahabzadə **əruz vəzninin** də geniş imkanlarından istifadə edib. O, əruz vəznində qəzəl, qitə, mürəbbe, rübai və fəxriyyələr yazıb. Bunların içərisində qəzəlləri üstünlük təşkil edib. B.Vahabzadənin əruz vəznli şeirləri heca vəznlilər qədər siqlətli və əruzun tələbləri baxımından mükəmməldir. B.Vahabzadənin qəzəlləri məhəbbət, sosial və fəlsəfi-əxlaqi mövzulardadır. Şair 1950-ci illərin əvvəllərindən ömrünün sonuna qədər qəzəllər yazıb. Bunlar adlı və adsızdır. "Pərvaz olanda", "O axşam", "Oyanmasın", "Heyranın olsun", "Bir mənəm, bir də sükut", "Düşə bilməz", "Vardır", "Nəsən sən?", "Din", "Bütövlük", "İşıq", "Allah", "Əsgər - Şair", "Tabut gedir", "Yunis İmrəyə", "Abdulla Tukaya", "Şeirim" və başqaları şairin adlı qəzəlləri sırasındadır. Şairin adsız qəzəlləri də çoxdur. Bunların əksəriyyəti məhəbbət mövzusundadır, rədifinə görədir.

B.Vahabzadə "Yenə bağlar o bağlardır, fəqət bağda gülüm yoxdur", "Ən ülvi, təmiz duyğudur insanda məhəbbət", "Bu qədər saldı məni həsrət amandan amana, Könlüm axırda mənim düşdü gümandan gümana", "Gəl, gəl deyə hicrində kaman tək mələdim mən", "De, bilirsənmi bir amalda yanan kimdi, gülüm?", "Pərvaz olanda", "Heyranın olsun", "Bir mənəm, bir də sükut", "Düşə bilməz", "Axtarma" şeirləri məhəbbət mövzusundadır.

Şairin müxtəlif mövzularda lirik, lirik-psixoloji, lirik-fəlsəfi, əxlaqi-estetik, satirik, ictimai-siyasi, fəlsəfi-əxlaqi, fəlsəfi-didaktik və təbiət mövzularında qəzəlləri də çoxdur.

"Muğam" milli musiqimizin heyrətinə həsr edilmiş qəzəldir.

*Daş ürəklərdə yanıb, daşları sındırdı muğam,*
*Haqqa düşmən olanı haqqa tapındırdı muğam*

B.Vahabzadənin "Ağlar ürəyim, səs gələr, ahı-zar görünməz" qəzəli lirik, "Nur atəşə, atəş göyə, göylər yerə möhtac" lirik-fəlsəfi, "Min kitab söz yazırıq qəlbi usandırmaq üçün" fəlsəfi-didaktik, "Vardır", "Dolmuş nə qədər istək ilə, kam ilə könlüm" lirik-psixoloji, "Heyrət elədik tamlığa, yüksəkliyə daim" əxlaqi-estetik, "Özü heyrət, suyu şəfqət, dağı şərbət bulağım", "O axşam" təbiət mövzulu qəzəllərdəndir. Fəqət bunlar arasında sədd görmək də düz deyil, təbii ki, belə müxtəliflik müəyyən şərtilikləri ilədir.

B.Vahabzadənin əruzlu şeirləri yalnız beytlərə (qəzəl, qitə, fəxriyyə) əsaslanmayıb. O, müxtəlif bəndlər əsasında da əruza müraciət edib. "Din" şeirində qəzəlin, bəhri-təbilin və 4-lük formasının imkanlarından istifadə olunub. Qəzəl (qitə) forması:

*Daşa dəydikcə oxum, günahım min-min olur,*
*Şükür olsun ki, yuxum yenə hərdən çin olur.*

B.Vahabzadə əruzda olan mürəbbelərin də müəllifidir. Onun məşhur "Allah" şeiri ("Fəryad" pyesindən) 14-lüyə uyğun gəlsə də, əruzdadır:

*İdrakda yol açmış gecədən gündüzə Allah.*
*Güldürmə sən öz könlünü, gülməz üzə Allah.*
*Dəryaya şəfəqlər kimi Tanrım səpələnmiş,*
*Qəlbin gözü yanmazsa, görünməz gözə Allah.*

"Heç olmasa" şeiri rübai janrındadır. Əruzun rəməl bəhrindədir.

B.Vahabzadənin "Yunus Əmrə" şeiri 3 misralıq (terset və ya tersinalar) bəndlər və 2 misralıq məsnəvi bənddən ibarətdir:

Bir yerdə ölüb, bəs niyə min yerdə doğuldu?

*- Eşqində yanırkən yenidən bir də doğuldu,*
*- Şeirindəki hikmətli sətirlərdə doğuldu.*

*- Bir yerdə ölüb, bəs niyə min yerdə məzarı*
*- Hər gün qazılır, çünki könüllərdə məzarı.*

B.Vahabzadə **sinkretik şeirin** (əruz-bəhr və heca-bölgü qarışığı, müxtəlifliyi) də nümunələrini yaradıb. H.Cavid, M.Müşfiq, S.Vurğun, X.Rza, M.Araz, S.Tahir, N.Həsənzadə, C.Novruz və başqa şairlərimizin bədii təcrübəsində özünə yer alan bu vəzn formasından B.Vahabzadə də geniş istifadə edib. "Axtaran tapar", "Həqiqəti yaşadan", "Barıt qoxusu var", "İşıq", "Ümid, yaşa", "Yazıq vətən", "Qürbət - Vətən", "Vətən tarixi", "Bir macal ver", "Haqqa heykəl qoyuldu", "Göz ya qulaq", "Biganəlik korluğumuz", "Sən dünyanın işinə bax", "Xəyalpərəst", "Biz nələri itirdik" və başqaları sənətkarın sinkretik şeirlərindəndir.

Şair milli şeirimizin vəzn və janr imkanlarından, təsvir və ifadə vasitələrindən geniş istifadə edib. Biz isə onun bəzi vacib məqamlarından imkan daxilində söz açdıq.

Bəxtiyar Vahabzadə sənət dəryasının parlaq incilərinə vurulmuş və bir könül yanğısı, bir insan məhəbbəti ilə onları əldə edib xalqımızın mənəvi xəzinəsinə yetirmiş görkəmli sənətkardır. Azərbaycan xalqı yaşadıqca onun parlaq zəkası sönməyəcək və ecazkar sənəti daim yaşayacaqdır.

**Əlizadə Əsgərli**